**YUBİLEYLƏR**

**səh.138-141**

# FİLOSOF ÖMRÜ:İLHAM MƏMMƏDZADƏ – 70
# The life of a philosopher -Ilham Mammadzadeh 70

Vaxtilə Şopenhauer yazırdı: “Ən gözəl musiqi örnəkləri yalnız bu sahədə təcrübəli və bilikli insanlar üçün anlaşılandır, çünki onların başlıca tonu səslərin labirintindən keçən uzun musiqi ifadələrindən ibarətdir. Bunun bənzəri olaraq, böyük ağıl sahibləri də əzablı və genişmiqyaslı daxili tənzimlənmə prosesindən, çox güclü şübhələrdən və çoxsaylı yanlışlıqlardan keçərək səbatlı vəziyyətə gəlib çıxırlar”. Gəlin etiraf edək ki, belə bir qlobal, ziddiyyətli proseslərin baş verdiyi narahatlıqlar əsrində dünyanın, insanın, insan ruhunun total iztirablar və axtarışlarla dolu fəlsəfə ilə məşğul olması, filosofluq etməsi son dərəcə mənəvi məsuliyyət yükü daşımaqla yanaşı, həm iztirablı, həm də xoşbəxtlik kimi bir yoldur. Burada qərarlaşmaq, öz ruhunun, dünyanın, insanın səsini duyaraq, anlayaraq ona reaksiyalar vermək elə ən gözəl örnəkləri dünyaya hədiyyə etmək cəhdidir. Ona görə də gəlin bir daha etiraf edək ki, müasir dövrdə filosof olmaq qədər ikinci bir məsuliyyətli “vəzifəni” təsəvvür etmək, bəlkə də, mümkün deyildir. Məsələ bundadır ki, fəlsəfə dövrün problemləri, ictimai-siyasi, etik-əxlaqi, milli-mədəni dəyərləri, dövlətçilik və müasirlik, ənənə və yenilikləri, bir sözlə, dünya, insan, elm, bilik və onun sivilizasiyanın inkişafında rolu, müasirliyin dialektik xüsusiyyətləri, cəmiyyətin oriyentasiyası, konsolidasiyası, “gələcəyi”, “indisi” və “keçmişi” barədə fikir plüralizmini, dialoqunu cəsarətlə həyata keçirən, millətin milli ideologiyasının müəyyənləşdirilməsində rol oynayan həm tarixi, həm də müasir paradiqmadır.

Onun əsaslarında daima dövlətin yanında olmaq, milli birlik və təhlükəsizlik kimi ideyaların həyata keçirilməsi zəminində fəaliyyət göstərmək bir növ tale məsələsidir. 70 illik ömür yoluna nəzər saldığımız filosof İlham Məmmədzadə 2020-ci ildə nəşr etdirdiyi “Bir daha fəlsəfə haqqında” kitabının 30-cu səhifəsində yazır: “M.Fuko hesab edir ki, fəlsəfə əbədi olanın keçmişin əsaslandırılmasından imtina etdiyi anda müasir olur. Fəlsəfə “indi və hazırda” olana müraciət etməlidir”.

Müasir siyasi, ideoloji, ictimai-humanitar insanı, cəmiyyəti bu proqramdan kənar təsəvvür etmək, sadəcə, mümkün deyil. Başqa sözlə, fəlsəfə insanın taleyi, insan fəlsəfəsinin, obrazlı desək, evristik məzmunudur. Təsadüfi deyil ki, Kant hesab edirdi ki, fəlsəfə insan olmağın paradiqmasıdır. Bütün bunlar nəzərə alınanda görürük ki, müasirlik və dövlətçilik baxımından fəlsəfə milli ideologiyanın, millətin bilavasitə dövlətçilik ideologiyasının təcəssümü və milli fəlsəfənin yaradıcısı olmalıdır. Belə bir məqamda vacib bir tezisi qeyd edək: Anlaşıqlıdır ki, belə bir qlobal epoxada və beynəlxalq ziddiyyətlərin, münasibətlərin mürəkkəbliyi şəraitində fəlsəfə ilə məşğul olmaq nə qədər vacib və məsuliyyətlidir. Biz əminik ki, indi bu vəzifə və məsuliyyətin daşıyıcısı olan, həyatını bütövlükdə fəlsəfəyə həsr etmiş professor İ.Məmmədzadənin rəhbərliyi altında yetişmiş və onun fəlsəfi tezislərindən bəhrələnən hər bir gənc alim, mütəxəssis milli fəlsəfənin, dövlətçiliyin, o cümlədən cəmiyyətin inkişafında öz vəzifələrini yüksək əzmlə həyata keçirmək üçün məhz öz sələflərindən, onların irsindən dərs götürüblər. Bunun üçün qarşımızda istinad edəcəyimiz, güvənəcəyimiz böyük məktəb və örnək vardır: bu, sözsüz ki, milli ideya və strategiyamızın fəlsəfəsindən, bütün bunları özündə təcəssüm etdirən ümummilli lider Heydər Əliyevin dövlətçilik və Azərbaycançılıq ideyalarından – fəlsəfəsindən irəli gəlir.

Bütün bu zəruri qeydlərdən sonra İnstitutumuzun direktoru – humanist insan, dərin intellektə malik alim, ən əsası, müasir Azərbaycan fəlsəfəsində öz dəst-xətti və istiqaməti ilə, fəlsəfi interperatasiyası ilə seçilən, böyük bir kollektivin qayğıkeş rəhbəri İlham Məmmədzadə haqqında fikir və düşüncələrimizi, onun fəlsəfə və dövlətçilik istiqamətində apardığı işləri, qismən də olsa, işıqlandırmağa cəhd edəcəyik. Bu yol və fəaliyyət bir filosof ömrünün, yuxusuz gecələrin məhsulu, obrazlı desək, xoş iztirablarla dolu bir “filosofluq yolu”dur. Zəmanənin məsuliyyətini daşımaq və ya ona şərik olmaq! Dünyada, cəmiyyətdə, kollektivdə baş verən bütün hadisə və proseslərə filosof və fəlsəfə kontekstindən yanaşmaq.

Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin məzunu İlham Ramiz oğlu Məmmədzadə SSRİ EA-nın Fəlsəfə İnstitutunda namizədlik və doktorluq dissertasiyalarını müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır. Hazırda o, bir çox Qərb universitetlərinin fəxri professoru; fəlsəfə aləmində xüsusi hörmətlə anılan «Вопросы философии», «Философский журнал» kimi mötəbər beynəlxalq elmi-fəlsəfi jurnalların redaksiya heyətinin üzvü, o cümlədən respublikamızın, xarici ölkələrin elmi nəşrlərində çap olunmuş çoxsaylı kitab və məqalələrin müəllifi və redaktoru, yüzlərlə elmi-fəlsəfi məqalələrin, dərin fəlsəfi əhəmiyyətli monoqrafiyaların müəllifi və ən nəhayət, böyük bir fəlsəfə kollektivinin rəhbəridir. Bütün bunlar İlham müəllimin elmi-fəlsəfi fəaliyyətinin yalnız bir qismidir. Bir faktı xatırlayaq: İ.Məmmədzadə Moskvada nəşr olunan «Философы России XIX-XX столетий» (М., изд-во «Академической проект», 2002, под ред. П.В.Алексеева) ensiklopediyasının hazırlanmasında redaksiya heyətinin üzvü kimi böyük rol oynamış və hal-hazırda da bir sıra beynəlxalq elmi-fəlsəfi nəşrlərin redaksiya heyətində fəaliyyətini davam etdirir.

Əlbəttə, bizim məqalədə məqsədimiz İlham Məmmədzadənin elmi bioqrafiyasını tam şəkildə əhatə etmək olmasa da, onun yaradıcılığında əsas fəlsəfi istiqamətləri, qismən də olsa, göstərməkdir. Lakin bir şeyi etiraf edək ki, əslində, filosofun yaradıcılığı ilə tanış olanda gördük ki, o, çoxaspektli və rəngarəng olduğundan onu tam əhatə etmək mümkün deyil. Çünki o, hər şeydən əvvəl, yeni ideyalar, fikirlər, dəyərlər generasiya edən bir filosofdur və daima yeni tədqiqat metodlarının axtarışı onun xüsusi üslubunu təşkil etdiyindən bu yaradıcılığı əhatəli işıqlandırmaq həm çətindir, həm də ciddi məsuliyyət tələb edir.

İlham müəllimin elmi fəaliyyəti 1970-ci illərdən – M.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsində təhsil aldığı dövrdən başlayıb. Filosofun yaradıcılığı ilə tanış olarkən qəribə bir qanunauyğunluq, daha doğrusu, əsl həyati bir meyarla rastlaşmaq olur: həyatında, fəlsəfəsində, siması və davranışlarında yüksək əxlaqı və mədəniyyəti birləşdirən filosofun məşğul olduğu sahənin məhvərini əvvəlcə məhz etika təşkil etmişdir. İllərin arxasına boylananda görürük ki, sovet dönəminin fəlsəfə elmində etika üzrə ən gənc və perspektivli mütəxəssislərdən biri kimi, İ. Məmmədzadə fəlsəfi mühitdə özünü hələ o zamandan təsdiq edə bilmiş və etika sahəsində zəngin bir təməl qoya bilmişdir. Filosofun yaradıcılığının zənginliyi o dönəmdə özünü bu kitablarda təsbit etmişdir: “Burjua əxlaqının böhranı”(1983), “Qərbin burjua əxlaq və siyasətinin nisbəti konsepsiyalarının tənqidi” (1986), “Siyasət və əxlaq” (1988) – bütün bu əsərlər gənc filosofun, əlbəttə ki, ilk və uğurlu axtarışlarının nəticəsi idi. Biz bu əsərlərdə iki qütbün, sovetlər və burjua cəmiyyətinin – iki ideoloji cəbhənin “döyüşlərinin”, ideya çəkişmələrinin və fəlsəfi polemika və bəzən də gizli dialoqlarının olduğunu müşahidə edə bilərik. Və bütün bunlar zaman baxımından tam təbii bir iş idi. Lakin maraqlısı budur ki, bir azərbaycanlı etikin – gənc fəlsəfi tədqiqatçının həmin illərdə cəsarəti istər-istəməz adamda həm də xoş bir heyrət doğurur: SSRİ kimi böyük bir sistemin ideoloji məkanında söz demək, fikir yürütmək və qəbul olunmaq - bu, əlbəttə, böyük hadisə idi, xüsusən də fəlsəfə sahəsində. Burada filosofun əsərlərinin tam siyahısını vermək mümkün olmasa da, iki əsərini xüsusi qeyd etməyi vacib hesab edirik. İ. Məmmədzadənin müstəqillik illərində fəaliyyəti daha məhsuldar olmuş, əsərləri fəlsəfi və ideoloji cəhətdən daha dərin mətləblərdən xəbər vermişdir. Məhz bu nöqteyi-nəzərdən gənc tədqiqatçılar onun yaradıcılığından, etik görüşlərindən milli dövlətçilik, milli fəlsəfə zəminində daha çox faydalana bilirlər. Alimin "Etikaya giriş" (2004) və "Əxlaqın təfsiri təcrübəsi"(2006) adlı monoqrafiyaları etikanın gizli sirlərinə, onun cəmiyyətdə, sosial və siyasi sferada, idarəetmədə oynadığı əhəmiyyətli rola həsr olunmuşdur. Fikrimizcə, onun "Etikaya giriş" kitabı etika sahəsində, həm də yalnız Azərbaycanın etika elmində deyil, dünya etika elmi üçün sanballı bir əsərdir.

Məlimdur ki, etika sosial elmdir, lakin eyni zamanda o həm də psixologiya, adətlər, şəxsiyyətin daxili aləmi ilə, deməli, şəxsiyyətin xüsusi keyfiyyətləri, Qərb nəzəri fikrindən bizə bəlli olduğu kimi, həm də Personalizmlə bağlı olan humanitar fəndir. Professorun əsərləri ilə tanışlıq zamanı görürük ki, o öz rəngarəng yaradıcılığında əsas ideyasını siyasət və əxlaq arasında mövcud olan çoxsaylı problem və ziddiyyətlər üzərində fundamental axtarışlar aparmaqla yanaşı, siyasətlə əxlaqın nisbətində bu problemləri həll etmək və bu yolda daima yenidən interperetasiyaların aparılmasının israrlı tərəfdarı kimi çıxış edir. Maraqlıdır ki, filosof həm də bunu edərkən öz əsərlərində milli-mənəvi dəyərləri unutmadan, siyasətin fəlsəfəsinə, praktik real dünyanın

ziddiyyətlərinə bir növ cavab reaksiyası kimi, ənənə və müasirliyin nisbətində edir və daha çox praqmatizmə səsləyir. Sanki filosof öz əsərlərində gənc tədqiqatcılara deyir: “İdeyalar vacibdir, lakin rasional siyasət və praktik həyata söykənməyən ideyalar ciddi sual doğura bilir”. Müəllif kimi, yazı hüququndan istifadə edərək burada bir şeyi qeyd etmək istərdik: bu prinsip, əslində, Ulu öndər Heydər Əliyev irsindən bəhrələnməkdən də qidalana, ortaya çıxa bilir. Fəlsəfi-siyasi ədəbiyyatdan bizə məlumdur ki, elit təbəqəyə məxsus insanlar – seçmə, xüsusi təfəkkürə malik insanlardır, amma, əgər söhbət siyasi elitadan gedirsə, onda bu, həmişə insanın, siyasətçinın xüsusi davranış kodeksini nəzərdə tutur ki, İlham müəllimin yaradıcılığında da bu nisbət daima qabarıq xətt kimi özünü göstərir. Məhz bu ənənə onun filosofluğunun N. T. Makiavelli məktəbindən gələn ənənələrlə həmahəng olduğu fikrini irəli sürməyə əsas verir. Ola bilər ki, bu həm də İ.Məmmədzadənin Makiavelli haqqında yazdığı əsərləri ilə bağlıdır. Burada bir haşiyə çıxmağı vacib hesab edirik: İlham Məmmədzadə öz interperetasiyalarında İntibah filosofu olan Makiavellini yüksək etik mövqeyə malik və bu yolda stabil bir siyasi filosof kimi təhlil edir. O öz etik-fəlsəfi görüşlərində izah edir ki, hər bir cəmiyyət normaların, qaydaların sosium və şəxsiyyət arasında əlaqələrin öz xüsusi və təkrarolunmaz sistemini yaradır. Bu elə bir sistemdir ki, bu prosesin əsas konsolidasiya qüvvəsi kimi bir növ etika çıxış edir. Burada mədəniyyət, din, dil, xalqın milli adətləri, əxlaq və siyasət iştirak edir. Bu həm də bir növ tarixi “sifariş”, xalqın özünüidentifikasiya prosesidir.

Son illər İlham müəllimin fəlsəfi yaradıcılığı o qədər zənginləşib və şaxələnib ki, onu burada bütünlüklə əhatə etmək, sadəcə, mümkün deyildir. Müəllifin yalnız beş əsəri – “Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında” (2009), “Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər” (2012), “Həsən bəy Zərdabinin müasir maarifçilik ideyaları və maarifçilik fəlsəfəsi” (2015) və “Philosophy of Mutual Influence of Cultures and Settlement of Germans in the Southern Caucasus» (2017) “Mədəniyyətlərin qarşılıqlı təsiri fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması” (2017) və adını çəkmədiyimiz onlarla məqalə və fəlsəfi tezisləri sübut edir ki, milli fəlsəfəmizin istiqamətində dərin zənginliyə doğru ciddi uğurların olduğunu qeyd edə bilək.

Bütün bu əsərlərdə müasir fəlsəfənin, cəmiyyətin, insanın əxlaq və ümumilikdə siyasətin problemləri, yeni-yeni anlayış və proseslərin dinamikası, cəmiyyəti və muasirliyi dərindən maraqlandıran elm, mədəniyyət, multikulturalizm, məntiq və idrak problemləri, metodoloji axtarışlar, milli fəlsəfə, mədəniyyətlərin dialoqu məsələləri, müasir təfəkkürdə təmayüllər və refleksiyalar, “indi” və “gələcək” həm Qərbin zəngin fəlsəfi təfəkküründən, həm də Şərqin qədim ənənələrindən – maarifçilik və dini ənənələrdən bəhs olunmaqla, bəhrələnməklə tədqiq edilir. Ən maraqlısı və düşündürücüsü isə filosofun daima, hər zaman öz fəlsəfəsini müasirliklə bağlamasındadır. Belə bir məqamda düşünürük ki, müəllifin özündən bir tezisi xatırlatmaq yerinə düşər. Professor alim fransız filosofu M. Fukoya istinadən yazır: “Fuko bəyan edir ki, fəlsəfənin deyə biləcəkləri yalnız indinin aktuallığına yönəlmişdir. Qeyd etmək lazımdır ki, bizim fəlsəfəyə dah çox xoş olan cəhət sanki keçmişə müraciətdir. Əslində isə, Fukonun da konsepsiyasından çıxdığı kimi, bizim keçmişə olan marağımız indiyə, müasirliyə olan marağımızı pərdələyir (yəni bizim əsərlərimizi anlamaq üçün onlardan indiyə gərək olan mənaları çıxarmaq lazımdır ki, bu da təbii olaraq, onların qavranılmasını çətinləşdirir”.

Biz İ.Məmmədzadənin yaradıcılığını öz təfəkkür süzgəcimizdən keçirərkən bir daha fransız, ingilis və alman fəlsəfi məktəblərinin, o cümlədən neoklassiklər və postmodernistlərin zəngin ənənələrinin ciddi interpretasiyası ilə rastlaşırıq. Burada M.Fukonun, R.Rortinin, Y.Habermas və digər müasir Qərb filosoflarının fəlsəfi görüşləri həm orijinal, həm də yeni interpretasiyalarda, milli fəlsəfənin aktuallığı və zərurətini, öz ştrixlərini saxlamaqla, müasir Azərbaycan fəlsəfə mühitinə təqdim edilir. Ən maraqlısı budur ki, filosof öz mülahizə və interpretasiyalarında daima Qərbin yeni fəlsəfi ənənələrini həm də məhz, milli fəlsəfə, identiklik, millət, etnos və milli xarakter kontekstindən mənalandırmağa çalışır. Alimin tarix fəlsəfəsindən və müasir dövlətçilik kursundan söhbət gedərkən öz ideyalarını Heydər Əliyev məktəbindən və onun davamçısı cənab İlham Əliyevin siyasi strategiyasından, humanitar əxlaq və xeyirxahlıq fəlsəfəsindən bəhs edərkən Birinci vitse-prezident Mehriban Əliyevanın genişmiqyaslı humanizmindən əxz etdiyini, milli fəlsəfə və milli ideyadan bəhs edərkən isə humanitar elmlərin qarşısında qoyduğu vəzifələrdən və perspektivlərdən çıxış

etdiyini bir əsas xətt kimi görür. Bu zaman o, məhz millilik və dövlətçilik fəlsəfəmizin, müasir dövlətçiliyimizin humanitar ideyalarını – multikulturalizmi, dialoq prosesini, Azərbaycan paradiqmalarını və dini dəyərlərimizi öz zəngin təfəkkür süzgəcindən keçirərək, müasirliklə iç-içə edir.

Müasir fəlsəfi tədqiqatlardan söhbət gedərkən görürük ki, professor İ. Məmmədzadəni, bir filosof kimi, ən çox və ciddi bir məsələ kimi, məhz fəlsəfi metodologiya problemi narahat edir. Demək olar ki, bütün fəlsəfi mühazirə və çıxışlarında, gənc tədqiqatçılarla görüşlərində o, əsas diqqəti tədqiqatların özəyinə – metodologiyanın düzgün təyin edilməsi məsələsinə istiqamətləndirir.

Filosofun əsərləri ilə tanış olanda aydın görmək olur ki, müəllifin monoqrafiya və məqalələrinin əsas ideya xəttində daima milli fəlsəfə, milli ideya, azərbaycançılıq və dövlətçilik fəlsəfəsi, etik-əxlaqi prinsiplər başlıca xətt kimi çıxış edir. Bu da, şübhəsiz, qlobal dünyanın çağırışlarından, refleksiyalarından doğan bir filosof narahatlığıdır. Bu kontekstdə filosofun narahatlıqları tam yerindədir, çünki hal-hazırda müasirliyin tendensiyaları sübut edir ki, tədqiqatlar, əsasən, analitik, müqayisəli və multidissiplinar, sosial və mədəniyyət istiqamətli olmalıdır. Bu, zamanın, dünyanın yeni çağırışlarıdır. Bu tövsiyənin əsasları da məhz Ulu öndər Heydər Əliyev irsindən, dövlətçiliyimizin müasir strategiyasından,onun dərkindən irəli gəlir.

Son illər alimlərimizin qarşısında Azərbaycanın inkişaf strategiyasında Qələbənin fəlsəfəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasətində strateji hədəflərin və siyasi varisliyin elmi əsaslarının araşdırılması, cəmiyyətimizə çatdırılması kimi mühüm vəzifə dayanmışdır. Ulu öndər Heydər Əliyevin siyasi dövlətcilik irsində bu məsələ ideologiya, siyasi lider və xalqın birliyi kontekstində araşdırmaları zəruri etmişdir. Bu mənada Fəlsəfə və Sosiologiya İnstitutunda bu araşdırmalar xüsusi elmi istiqaməti müəyyənləşdirmişdir. 2004-cü ildən başlayaraq Ulu Öndər Heydər Əliyevin irsinin tədqiqi və təbliğini həyata keçirən elmi heyətin fəaliyyəti 2007-ci ildə Heydər Əliyev Məktəbi kimi formalaşmışdır. Daha sonra 2017-ci ildə həmin tədqiqatların bazasında İnstitutda "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsi fəaliyyətə başlamışdır. AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin və İnstitutun direktoru İlham Məmmədzadənin diqqəti sayəsində bu sahədə sistemli tədqiqatların aparılması İnstitutun fundamental tədqiqatları icərisində ön sıralara çıxmış, cəmiyyətimizə vacib əsərlər təqdim edilmişdir. Bu baxımdan filosofun son illər tədqiqata cəlb etdiyi əsərlər içərisində "Heydər Əliyev və İlham Əliyev: Güclü dövlət. Qələbənin fəlsəfəsi. Böyük Qayıdış" adlı kitab (s.e.ü.f.d. Sənan Həsənovla birlikdə) tədqiqat əhatəsinə görə ölkəmizdə ilk əsərlərdəndir. Müəllif Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərinin təhlili kontekstində onun sovet dövrü fəaliyyətindən müstəqillik illərinə, qayıdışdan-xilaskarlığa, xilaskarlıqdan Azərbaycanın qüdrətli gələcəyinə təminat verən və siyasi varisliyin İlham Əliyev mərhələsini əhatə edən sabitlik, güclü dövlət, Qələbə və Böyük Qayıdışın fəlsəfi-siyasi, ideoloji əsaslarını elmi dövriyyəyə gətirmişdir. Tədqiqatçının böyük zəhməti sayəsində ərsəyə gələn kitabdakı yanaşmalar Azərbaycanın müstəqillik fəlsəfəsinin elmi əsaslarının dərki baxımından mühüm əhəmiyyətə malikdir.

Qeyd edək ki, yubilyarın səmərəli fəaliyyəti AMEA-nın prezidenti akademik İsa Həbibbəyli tərəfindən yüksək qiymətləndirilmiş, o, bu günlərdə Fəxri Fərmanla təltif edilmişdir. İnanırıq ki, görkəmli filosofumuzun əməyi bundan sonra da dövlətimiz tərəfindən yüksək qiymətləndiriləcəkdir.

Beləliklə, 70 illiyini qeyd etdiyimiz, elmi ictimaiyyət tərəfindən əməyi yüksək qiymətləndirilən tanınmış filosof, elm təşkilatcısı, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə ömrünün müdriklik çağını yaşayır. Ona bundan sonra da dövlətciliyimizin inkişafı yolunda və fəlsəfə elmində, yeni tədqiqatlarında yaradıcılıq uğurları, cansağlığı, mənalı illərlə dolu şərəfli və uzun bir ömür arzulayırıq.

**Sənan Həsənov**
**Senan Hasanov**
Siyasi elmlər üzrə fəsəfə doktoru, dosent

**Şölət Zeynalov**
**Sholat Zeynalov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent